# Artıq 5 ildir mən Şuşalıyam





**Şuşalıyam. Təəssüf ki, məlum səbəbdən ömrümün 30 ilini Şuşaya həsrət qaldım. O üzdən xalqımızın və dövlətimizin tarixinə qızıl hərflərlə yazılan şanlı Qələbəmizdən sonra doğma Şuşanı tez-tez ziyarət edirəm. Bu yerlərin hər cığırında izlərim var. Şuşanın adi daşına, divarına sığal çəkməkdən rahatlıq duyuram.**

Cıdır düzünün kənarında dayanıb sıldırım qayaları, gen dərələri, sıx meşələri, qartallar süzən zəngin səmanı seyr etdikcə, sanki ana təbiətin ovsununa düşürəm. İçimə hüzur dolur, azad Şuşanın xoşbəxt övladı kimi qürurlanıram. Bu sonsuz sevinci bizə yaşadan qəhrəman Azərbaycan əsgərinin dünyanı heyrətə gətirən hünərinə alqış deyirəm.

Qələbə qurbansız olmur, deyirlər. Vətən sevdalı neçə igid balamız sinəsini düşmən gülləsinə sipər edib şəhid oldu, əbədiyyətə qovuşdu. Bu müqəddəs savaşda neçə ər oğlumuz yaralandı, sağlamlığını itirib qazi statusunu qazandı. Bu gün qədirbilən xalqımız da, qüdrətli dövlərimiz də şəhidlərin xatirəsini uca tutur, şəhid ailələrinə, qazilərə, veteranlara qayğı və diqqətini əsirgəmir.

Şuşaya hər səfərimdə bir yenilik görürəm. Andı, qibləsi vətən olan oğulların hünəriylə Şuşa canlanır, nazlı gəlin kimi cilvələnir. Doğma əllər Şuşanın gözəlliyinə hər gün, hər ay yeni naxışlar vurur. Bu gün Şuşa gözəlliyi ilə göz qamaşdırır, hər gələn qonağı heyran edir.

30 il faşist xislətli Ermənistan silahlı qüvvələrinin işğalı altında inləyən, intizar gözləri yol çəkən Şuşa Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrəti, qəhrəman Azərbaycan əsgərinin hünəriylə azadlığa qovuşdu. 30 il qəfəsdə çırpınan nəğməkar bülbül beş ildir ki, azaddır. 5 ildir ki, həsrətdən buz bağlamış ürəklərin donu açılıb. Şuşa yenə çal-çağırlı, bayram ovqatlı günlərinə qovuşub.

30 il vətəndə qürbət nisgili yaşayan, məcburi köçkün kimi ölkənin yaxın-uzaq bölgələrinə səpələnən şuşalılarda, qohum-qardaşda, dost-tanışla Şuşada tez-tez qarşılaşıram. Qucaqlaşırıq, bir-birimizə sıxılıb sevinclə döyünən ürəklərimizin çırpıntılarını eşidirik. Xatirələr vərəqlənir, kövrək duyğulardan təsirlənirik. Hər belə görüşün dəyişməyən nəqarəti şükranlıq olur. Müzəffər Ali Baş Komandan İlham Əliyevə sonsuz minnətdarlıq ünvanlayır, xoş arzular diləyirik. Xalqımıza həyat firavanlığı, dövlətimizə yenilməz qüdrət istəyini dönə-dönə dilə gətiririk.

Mən şuşalıyam. Bir zamanlar bu cənnətməkanda evimiz, həyətimiz olub. İndi Bərdədə yaşayıram. Burada çoxlu dostum, yoldaşım var. Amma etiraf edim ki Şuşanın cazibəsindən çıxmaq mümkün deyil. Axı mən 5 ildir Şuşasız şuşalı deyiləm.

*Aydın SƏFƏROV,*
*Bərdə şəhəri*

Azərbaycan.-2025.- 8 noyabr (№ 239).- S.17.